**İslam dünyasının ən mötəbər idman tədbiri - V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet qalib adı uğrunda gərgin mübarizə aparır. Bütün nüfuzlu turnirlərdə uğurla çıxış edərək Azərbaycanın adını daim uca tutan idmançılarımız qardaş ölkə Türkiyədə növbəti tarixi nəticələrə imza atmaqdadırlar.**

# Gimnastlarımız tarix yazdılar



Azarkeşlərin medal gözlədiyi idman növləri sırasında gimnastika da xüsusi yer tuturdu. Azərbaycan gimnastlarının Konyada qazandıqları medalların sayı 17-yə (8 qızıl, 7 gümüş, 2 bürünc) çatıb.

Ümumiyyətlə, digər idman növləri ilə yanaşı, gimnastika da ölkəmizdə kifayət qədər populyarlığa malikdir. Son illər idmanın bu növü sürətlə inkişaf edir. Onun bütün növlərində gözəllik, güc, incəsənət bir-birini tamamlayır. İdmançının hansı alətdə çıxış etməsindən və ya sərbəst hərəkətləri yerinə yetirməsindən asılı olmayaraq, tamaşaçı böyük zövq alır, insanın yaratdığı möcüzə qarşısında heyrətə gəlir.

Yüksək səviyyədə dövlət qayğısı sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Digər idman növləri ilə yanaşı, gimnastika da diqqətdən kənarda qalmayıb. Bu nailiyyətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın federasiyaya rəhbərliyi sayəsində mümkün olub. Başqa sözlə, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün əsl inkişaf mərhələsi başlamışdır.

Gimnastikanın bütün növlərinin, maddi-texniki bazasının gücləndirilməsi, bu idman növünün kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunları çərçivəsində aerobika gimnastikası və bədii gimnastika yarışlarının final mərhələləri keçirilib. Bədii gimnastika üzrə fərdi proqramda qüvvəsini sınayan Zöhrə Ağamirova lent və gürzlərlə qızıl, halqa ilə gümüş, topla hərəkətlərin icrasında bürünc medal qazanıb.

Oyunlarda Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət bədii gimnastika üzrə qrup hərəkətləri komandamız 3 lent və 2 topla qızıl, 5 halqa ilə hərəkətlərin icrasında isə gümüş medal əldə edib.

Final mərhələsində fərdi proqramda mübarizə aparan təmsilçimiz İlona Zeynalova gürzlərlə 4-cü, lentlə hərəkətlərin icrasında 6-cı olub.

Komandamızın digər üzvü Alina Gözəlova topla 4-cü, halqa ilə hərəkətlərin icrasında 7-ci pillədə qərarlaşıb. Bununla da bədii gimnastika üzrə yığma komandamızın üzvləri V İslam Həmrəyliyi Oyunlarını 8 medalla (5 qızıl, 2 gümüş, 1 bürünc) başa vurublar.

Oyunlarda aerobika gimnastikası üzrə təmsilçilərimiz də uğurlu çıxışları ilə yadda qalıblar. Belə ki, fərdi proqramda mübarizə aparan gimnastlarımız Vladimir Dolmatov qızıl, Mədinə Mustafayeva isə gümüş medala sahib çıxıb. Vladimir və Mədinə qarışıq cütlük proqramında bütün rəqiblərini üstələyərək çempion olublar. Təmsilçilərimiz M.Mustafayeva, V.Dolmatov və Xoşqədəm Quliyeva üçlük proqramında ikinci pillədə qərarlaşıblar. Bu növ üzrə komandamızın üzvləri oyunları 5 medalla (2 qızıl, 3 gümüş) başa vurublar.

Qeyd edək ki, oyunlar çərçivəsində bu gün və sabah qadın idman gimnastlarımız mübarizəyə qoşulacaqlar.

Azərbaycan.- 2022.-16 avqust.- S.7.